# Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurası Niderlandın koalisiya hökumətinə etiraz məktubu ünvanlayıb

**Amsterdamda fəaliyyət göstərən Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurası sentyabrın 13-də qəbul edilmiş dövlət proqramına etiraz olaraq Niderlandın koalisiya hökumətinə və Baş nazir Dik Şufa (Dick Schoofa) müraciət ünvanlayıb.**


Azerbeidzjan behoort niet tot de landen die Rusland helpen om sancties te omzeilen in tegenstelling tot Armenië, die een van de grootste partners is met miljardenomzet in de gesanctioneerde productie, het zogenaamde re-export. Door Armenië te steunen investeert uw regering indirect in een omzeilingsconstructie!

Het gebruikte toponiem Nagorny Karabach in plaats van Karabach in uw regeerprogramma is onjuist. We hopen dat het niet bewust is gedaan en verzoeken u om het te laten herstellen alsmede de term "inname" te vervangen. De inname betekent immers een bezetting, terwijl Azerbeidzjan juist de bezette territoria heeft bevrijd.

Met dit betoog willen wij aan u overbrengen dat dergelijke vooringenomen positie niet aan een vreedzame oplossing van het conflict tussen Azerbeidzjan en Armenië bijdraagt.
We willen niet dat de gekozen politieke agenda van uw Kabinet de betrekkingen tussen Nederland en Azerbeidzjan verslechtert. Er is wederzijds veel geïnvesteerd in de duurzame betrekkingen en het is zeer politiek kortzichtig om de banden tussen onze staten zo op spel te zetten. Onze landen hebben goede economische banden, er zijn ca. 120 Nederlandse bedrijven actief in Azerbeidzjan en dit land is een betrouwbare partner van Europa.
Azerbeidzjanen in Nederland houden van en zetten zich in op diverse gebieden voor dit mooie land, dat voor ons een tweede huis is geworden. Maar velen van ons zijn hier beland juist ten gevolge van de Armeense agressie, we waren ooit van ons land verdreven, hebben dierbaren verloren en sommigen zijn er nooit volledig bovenop gekomen. Daarom konden we het niet laten om onze burgerlijke positie aan uw regering bekend te maken.

Gezien het bovenstaande verzoeken wij u om de benoemde aspecten zorgvuldig mee te wegen bij de realisatie van doelstellingen uit het paragraaf "Internationale veiligheid" van het regeerakkoord en om daarnaast de aangehaalde terminologiegebruik te herzien.

**Sahil Gasimov**

**Secretary General**
**Euro- Atlantic Partnership Council Azerbaijanis**

AZƏRTAC xəbər verir ki, müraciətdə Niderlandda yaşayan Azərbaycan İcması koalisiyanın hökumətinin ölkəmizə qarşı qəbul etdiyi dövlət proqramı ilə əlaqədar narahatlığı ifadə olunub. Bildirilib ki, koalisiya hökumətinin BMT Təhlükəsizlik Şurasının işğalçı dövlət kimi tanıdığı, bir milyon azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə salmış Ermənistanın yanında olması təəssüf doğurur. Niderland Qarabağ və onun ətrafındakı 7 rayonu işğal etmiş Ermənistanı dəstəkləyir.

Müraciətdə bildirilir ki, koalisiya hökumətinin dövlət proqramında Qarabağ toponiminin "Dağlıq Qarabağ" kimi qeyd edilməsi tamamilə yanlışdır. Niderlandın Azərbaycan icması bu hökumətin qərəzli siyasi fəaliyyəti nəticəsində iki ölkə arasında münasibətlərin pozulmasını istəmir. İki dövlət arasında sıx iqtisadi əlaqələr mövcuddur, 120-dən çox Niderland şirkəti ölkəmizdə müxtəlif sahələrdə aktiv fəaliyyət göstərir.

Niderlanddakı Azərbaycan İcmasının üzvlərinin əksəriyyəti Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində doğma yurdlarından - Qarabağdan qovulmuş insanlardır. Erməni işğalı nəticəsində onların bir çoxu yaxınlarını, ailə üzvlərini itiriblər.

"Koalisiya hökumətinin dövlət proqramına yenidən baxmasını və terminologiyalardan düzgün istifadə olunmasını tələb edirik", - deyə müraciətdə həmçinin vurğulanıb.

Qeyd edək ki, müraciət "Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının Baş katibi Sahil Qasımov tərəfindən Şuranın idarə heyəti adından göndərilib.

Azərbaycan.- 2024.- 5 oktyabr (№ 218).- S.8.